# 22 Noyabr Ədliyyə işçilərinin peşə bayramı günüdür

**Bir əsrlik fəaliyyətini başa vuran ədliyyə sistemi daha iki ili də yola saldı. 102 yaşlı ədliyyəmizin özünəməxsus tarixi keçmişi vardır. Təməli Azərbaycan Demokratik Respublikası tərəfindən qoyulan ədliyyə sistemi daim inkişafda olmuşdur. Belə ki, ilk dəfə olaraq 1918-ci il 22 noyabrda Azərbaycan Demokratik Respublikası tərəfindən Ədliyyə Nazirliyi təsis edilərək onun Əsasnaməsi təsdiq edilmişdir.**

Azərbaycan yenidən müstəqillik əldə etdikdən sonra 22 noyabr 2000-ci ildə Ulu Öndərimiz Heydər Əliyev tərəfindən sərəncam imzalanmış, 22 noyabr ədliyyə işçilərinin peşə bayramı kimi qeyd edilmiş, tarixi həqiqət öz yerini tapmışdır.

Şərqdə ilk dəfə öz azadlığını bərpa edən Azərbaycan Demokratik Respublikası ilk gündən 1918-ci ildə noyabrın 14-də Azərbaycan Məhkəmə Palatasının Əsasnaməsini, ardınca 22 noyabrda Ədliyyə Nazirliyinin Əsasnaməsini təsdiq etmişdir. Çar Rusiyası dövründə Daxili İşlər Nazirliyinin tərkibində olan həbsxanalar isə (pentensiar müəssisələr) 11 avqust 1919-cu ildən Ədliyyə Nazirliyinin tabeliyinə verilmişdir.

Təcrübəli dövlət xadimi Xəlil bəy Xasməmmədov ilk Ədliyyə naziri olmuşdur. Çar Rusiyasından miras qalmış ədliyyə sistemi iflic vəziyyətində olduğundan nazirlik öz işinə ilk növbədə ədliyyə, məhkəmə və istintaq strukturunun bərpası ilə başlamışdır. Kadrların hazırlanması məqsədilə hüquq kursları təsis edilmiş, qısa müddət ərzində Azərbaycanın məhkəmə palatası yaradılmış, Bakı dairə məhkəməsinin və onun tərkibində prokurorluğun fəaliyyəti bərpa olunmuşdur. Ədliyyə Nazirliyi tərəfindən həmin dövr üçün mütərəqqi hesab edilən qanun layihələri, o cümlədən məhkəmə və istintaq fəaliyyəti, rüşvətxorluğa görə cəzaların gücləndirilməsi, amnistiyanın elan edilməsi, vətəndaşlıq barədə habelə ictimai və dövlət əhəmiyyətli digər layihələr hazırlanaraq parlamentin müzakirəsinə çıxarılmışdır.

1920-ci ilin aprel ayında Azərbaycan işğal edildikdən sonra milli dövlətçiliyin sütunlarından olan Ədliyyə Nazirliyi də ləğv edilmiş, Xalq ədliyyə komissarlığı yaradılmışdır. Ədliyyə və məhkəmə orqanlarından represiya aləti kimi istifadə olunmuşdur. Nazirlik 2 dəfə ləğv edilərək uzun müddət fəaliyyət göstərməmiş, onun səlahiyyətləri ayrı-ayrı qurumlar arasında bölüşdürülmüşdür. Sabit sturuktura malik olmaması ədliyyə sisteminin inkişafına ciddi əngəllər törətmişdir.

Ölkəmizdə ədliyyə sisteminin təşəkkülü və ümumiyyətlə Ədliyyə Nazirliyinin əsaslı surətdə təsis edilməsi Ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, dahi öndərimiz Azərbaycana rəhbərlik etdiyi dövrdə - 1970-ci ildə onun əzimkarlığı nəticəsində Azərbaycan Ədliyyə Nazirliyi yenidən bərpa edilmiş, Bununla da Azərbaycan ədliyyə tarixində yeni mərhələ başlamışdır.

Ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Heydər Əliyev "ədaləti ədalətsizlikdə bərpa etmək olmaz" deyərək qanunun aliliyini əsas meyar kimi müəyyənləşdirmiş, cinayətkarlığa, rüşvətxorluğa qarşı SSRİ məkanında ilk dəfə açıq və cəsarətli çıxış edərək, barışmaz münasibət nümayiş etdirmiş, insanlara hüquqi xidmətin yaxşılaşdırılmasını əsas prioritetlərdən biri kimi müəyyən etmişdir. 1992-ci ildə Ədliyyə Nazirliyinin Əsasnaməsi təsdiq edilmiş, ədliyyə işinin gələcək inkişafı üçün zəmin yaranmışdır.

1991-ci ildə xalqımız müstəqilliyini bərpa etsə də, ölkəmiz naşı siyasətçilərin vəzifə çəkişməsi, qeyri-ardıcıl səriştəsiz siyasət, vətəndaş qarşıdurması, erməni təcavüzü nəticəsində müstəqilliyin yenidən itirilməsi təhlükəsi ilə üz-üzə qalmışdır. Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qeyd etdiyi kimi, "əfsuslar olsun ki, müstəqilliyimizin ilk mərhələsində Heydər Əliyev hakimiyyətdə deyildi. Əgər olsaydı biz böyük itkilərlə üzləşməzdik". Belə bir çətin zamanda hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyevin xilaskarlıq missiyası, müdrik siyasəti, dəmir iradəsi, zəngin bacarığı ilə dövlətçiliyimizin itirilməsi təhlükəsi aradan qaldırıldı. Onun rəhbərliyi ilə ilk Konstitusiyamız qəbul olundu.

Hüquqi sahəyə xüsusi önəm verən ulu öndər Hüquqi İslahatlar Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürmüş, qısa müddət ərzində mühüm qərarlar qəbul edilmişdir. Azərbaycan Ədliyyəsi yeni inkişaf mərhələsinə qədəm qoymuş, nazirliyin ənənəvi fəaliyyət istiqamətləri, o cümlədən normativ aktların dövlət qeydiyyatı və uçotu, ekspertizası, notariat və qeydiyyat məhkəmə ekspertizası sahəsində iş yenidən qurulmuşdur. Ölkəmizdə müasir məhkəmə sisteminin formalaşması ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Onun rəhbərliyi ilə üçpilləli məhkəmə sisteminin yaradılması, Hakimlərə ilk dəfə test üsulu ilə keçirilmiş şəffaf müsabiqə əsasında hakim korpusunun 60 faizə qədər təzələnməsi ədalət mühakiməsinin səmərəli keçirilməsinə xidmət etmişdir. Ulu Öndər Heydər Əliyevin dövlət quruculuğu xəttini uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan ədliyyə sistemi daha da inkişaf etmiş, onun nomativ bazası daha da təkminləşdirilmiş, o cümlədən "Ədliyyə orqanlarında qulluq keçmə haqqında Qanun", nazirliyin yeni Əsasnaməsi qəbul edilmiş, ona hüquq mühafizə orqanı statusu verilmiş, ədliyyə orqanlarının inkişafı, məhkəmə sisteminin müasirləşdirilməsi, elektron məhkəmə informasiya sisteminin yaradılması, cəza siyasətinin humanistləşdirilməsi və penitensiar müəssisələrin fəaliyyətinin təkminləşdirilməsi ilə bağlı fərman və sərəncamların imzalanması, habelə Ədliyyənin inkişafına dair ayrıca dövlət proqramının qəbulu xüsusi əhəmiyyət kəsb edir.




Nazirlikdə yeni baş idarə və idarələr, həmçinin Ədliyyə Akademiyası, regional ədliyyə qurumları, probasiya xidməti, müxtəlif reyestrlər yaradıldı.

Nazirlik tərəfindən fəaliyyətin ayrı-ayrı istiqamətləri üzrə çoxsaylı normativ aktlar, 100-dək əsasnamə, təlimat və digər mühüm sənəd qəbul edilmiş, 300-dən çox təşkilati əmr verilmişdir. Bu gün ədliyyə sahəsində dövlət siyasətini və idarəetməni həyata keçirən Ədliyyə Nazirliyi qanunların təkmilləşdirilməsində iştirak edir, normativ hüquqi aktların layihələrini hazırlayır, əhalinin və mətbu nəşrlərin, sahibkarlıq sahəsində aparılan yoxlamaların və qüvvədən düşmüş sənədlərin reyestrlərini, vətəndaşlıq vəziyyəti aktlarının, qeyri-hökumət təşkilatlarının dövlət qeydiyyatını aparır, penitensiar sistemə rəhbərlik edir, ədalət mühakiməsi əleyhinə və bir sıra digər cinayətlər üzrə ibtidai istintaqın aparılmasını, notariat fəaliyyətini, məhkəmə ekspertizasının keçirilməsini, məhkəmələrin fəaliyyətinin təşkilati təminatını, məhkəmələrin və digər orqanların qərarlarının icrasını və probasiya nəzarətini təmin edir. Həmçinin, nazirlik bələdiyyələrə metodoloji yardım göstərir və inzibati nəzarət edir, Ədliyyə Akademiyasında ədliyyə və məhkəmə işçiləri, vəkillər, bələdiyyə üzvləri, ədliyyə qulluqçularının və digər hüquqşünasların ixtisas artımını, habelə peşə fəaliyyətinə buraxılışı, ölkəmizin adından hüquqi yardım və əməkdaşlıq haqqında müqavilələrin bağlanmasını və onların icrasını, beynəlxalq sahədə hüquqi yardım göstərilməsini təmin edir və digər funksiyaları həyata keçirir. Bütün bu fəaliyyət sahəsinin arxasında geniş həcmli konkret işlər dayanır. Son 15 ildə nazirlik tərəfindən 32 mindən artıq qanunvericilik layihəsi ekspertizadan keçirilmiş, 6.500-dən çox layihə hazırlanmış, əhalinin təmənnasız istifadəsinə verilmiş milli qanunvericiliyin elektron sistemi, vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatının elektron sistemi, eləcə də, ölkə prezidenti İlham Əliyevin "Elektron Məhkəmə" informasiya sisteminin yaradılması haqqında 13 fevral 2014-cü il tarixli Sərəncamı ölkəmizdə dövlət xidmətlərinin həyata keçirilməsində informasiya-kommunikasiya texnologiyalarından istifadə olunması, innovativ halların tətbiqi dövlət siyasətinin prioritetlərindən biri olmaqla elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı mühüm addımlar atılması baxımından son dərəcə əhəmiyyətli oldu.

Ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, ölkəmizin məhkəmə-hüquq sisteminin müasirləşdirilməsinə xüsusi diqqət yetirən ölkə prezidenti İlham Əliyevin 10 fevral 2017-ci il tarixdə imzaladığı cəza siyasətinin humanistləşdirilməsinə dair Sərəncamı ölkəmizin inkişafı və əldə edilən hərtərəfli uğurlar fonunda cəza siyasətinə, cinayət qanunvericiliyinə, məhkumların hüquqlarının təminatı məsələlərinə baxışın yenilənməsi, penitensiar sistemin fəaliyyətinin təkmilləşdirilməsi, bu sahədə olan dünyada mövcud ən mütərəqqi təcrübələrin tətbiqi baxımından proqram xarakterli sənəddir.

Təsadüfi deyil ki, 2017-ci ildə Azərbaycan Avropa Şurasının ədalət mühakiməsinə dair müsabiqəsində qalib gələrək məhkəmə sisteminə elektron idarəetmənin daha mütərəqqi tətbiqi baxımından Avropa Şurasının "Kristal Ədliyyə Tərəzisi" mükafatına layiq görülmüşdür.

Ölkə prezidenti İlham Əliyevin rəhbərliyi və təşəbbüsü ilə yaradılmış və artıq dünyada Azərbaycan brendi kimi məşhurlaşmış "ASAN xidmət" mərkəzlərində fəaliyyət göstərən notariat və qeydiyyat orqanları tərəfindən 5 milyona yaxın əməliyyat aparılıb, verilən sənədlərin 40 faizindən çoxu məhz ədliyyə qurumlarının payına düşmüşdür. Və buna görə də "ASAN xidmət" mərkəzlərinin fəaliyyəti bütün dünya dövlətlərinin həqiqi maraq dairəsindədir.

Bu gün qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə son 15 ildə sürətlə inkişaf edir, bütün sahələrdə yüksək nailiyyətlər, parlaq qələbələr qazanır, dünyada beynəlxalq imici günbəgün yüksəlir.

***Məmməd MUSTAFAYEV***
***Şəki regional "ASAN xidmət" mərkəzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbəsinin rəisi***